**Etibar Əliyev♦**

## ”Ədalətsizliklə yaranan şərəfsizliklə məhv olur”




Keçən əsrin 90-cı illərinin axırlarından tanıdığım, “Ermənistan-Azərbaycan,Dağlıq-Qarabağ münaqişəsinin beynəlxalq hüquqi məsələlərinin ilk tədqiqatçısı, bu mövzuda kitab və məqalələrini həmişə böyük heyranlıqla oxuyub, elmi təfəkkürünə, analitik təhlil bacarığına, beynəlxlaq müqavilələrin müddəalarının şərhi zamanı Azərbaycanın haqlı mövqeyini əsaslandırmaq qabiliyyətinə hörmətlə yanaşdığım, hüquq üzrə fəlsəfə doktoru Vəfaddin İbayevin “Suverenliyin Zəfər yolu: reallaşan ideyalar, hüquqi əsaslar, siyasi paralellər” kitabının hər bir azərbaycanlı üçün qürur mənbəyi olan Vətən müharibəsindəki Zəfərimizə layiqli səviyyədə yazıldığına heç bir şübhəm ola bilməzdi. Kitabla qısa zaman çərçivəsində tanış olmağım qənaətimdə yanılmadığımı, Vəfaddin İbayevin yeni tədqiqatının çoxtərəfli elmi araşdırmanın, böyük zəhmətin, elmi təfəkkürün real nəticəsi olmasını tam əminliklə bildirərək, qələm yoldaşımızı yeni uğuru və Azərbaycanın dövlətçilik tarixinə verdiyi töhfəyə görə təbrik edirəm.

İlk öncə onu qeyd edim ki, əsərin elmi yaradıcılığın gözəl nümunəsi kimi oxuculara təqdim olunması özünün tarixi və elmi köklərinə malikdir. Qeyd etdiyim kimi V.İbayev 30 ilə yaxındır ki, beynəlxalq hüquq üzrə mütəxəssis, həm də Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüquqi aspektindən ilk tədqiqatçısı kimi Azərbaycanın bu sahədəki alimlərinə tanışdır. Onun XX əsrin sonları - XXI əsrin əvvəllərində yazdığı məqalələr (“BMT Nizamnaməsi. Sülhün və Təhlükəsizliyin təmini”. Qanun jurnalı. 1998. №6 (46).s.58-59; “İslam Konfransı Təşkilatının Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar qəbul etdiyi qətnamələr beynəlxalq hüquqa əsaslanan sənədlərdir”. Qanun jurnalı. 1998. №7 (47). s.32-33;

“Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq-hüquqi tənzimlənməsi yolunda”. “Dirçəliş XXI əsr jurnalı”. 1998. № 3-4. s. 76-83; Ermənistan beynəlxalq hüquq normalarını pozmaqda davam edir. Beynəlxalq həyat jurnalı. 1998. № 1. s. 12-22; Beynəlxalq cinayətkarlıqla mübarizədə yeni ənənələr”. Qanun jurnalı.1999. № 5-6. s. 83-86; Ermənistan-Azərbaycan münaqişəsi və siyasi reallıqlar. Dirçəliş XXI əsr jurnalı 1999. № 18. s.74-85; “Ermənistan-Azərbaycan münaqişəsi zamanı insan hüquqları və əsas azadlıqların pozulması” “Dirçəliş XXI əsr jurnalı. 1999. №21-22. s. 89-100; “Ərazi bütövlüyü prinsipi beynəlxalq sülh və təhlükəsizliyin təmini üçün əsas meyardır”. Beynəlxlaq həyat jurnalı. 199. №1. s.3-12; “Azərbaycanda qaçqın və məcburi köçkün probleminin beynəlxlaq hüquqi cəhətləri. Hüquqi dövlət və qanun jurnalı. 1999. №11-12. s. 71-78; “Beynəlxalq hüquq Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə tənzimlənməsini tələb edir”. Bakı Universiteti xəbərləri. BDU-80 1999. №3. Sosial-siyasi elmlər seriyası. s. 165-174; “Azərbaycanın milli qanunvericiliyində müharibə cinayətlərinin qarşısının alınması” (rus dilində) Müharibə cinayətlərinin qarşısının milli və və beynəlxalq səviyyədə alınması. Regional konfransın materialları. 29-31 may. Moskva.s. 22-29; “Ermənistan-Azərbaycan

♦ **Əliyev Etibar Əli oğlu -** hüquq üzrə elmlər doktoru, professor.

münaqişəsinin Qafqazda İslam Mədəniyyətinə tesiri”. Kafkasiyada İslam medeniyyəti. İstanbul. 2000. S. 96-106 (türk dilində); Xocalı faciəsi beynəlxalq cinayət olaraq Ermənistan Respublikasının Aszərbaycan xalqına qarşı apardığı məqsədyönlü soyqırım siyasətinin tərkib hissəsidir. Dirçəliş XXİ əsr jurnalı. 2002. №48. s.18-31; Без вести пропавшие: исторические корни проблемы, национальное законодательство// Российский Ежегодник Международного Права. 2005. Специальный выпуск. Санкт-Петербург. 2006. с. 96-105), müəllifin Ermənistan - Azərbaycan münaqişəsinin müxtəlif aspektlərini işıqlandıran kitabları (İslam Konfransı Təşkilatı. Bakı. 1998. 87 s; Avropa Şurası (Hadı Rəcəbli ilə birlikdə) Bakı.1999.116 s; Ermənistan-Azərbaycan münaqişəsi beynəlxalq hüququn jus cogens prinsipləri prizmasında. Bakı.1999, 127 s; Qafqaz müsəlmanları İdarəsi və Ermənistan-Azərbaycan münaqişəsi. Bakı.1999, 242 s; Beynəlxalq humanitar hüquqda məsuliyyət məsələləri. Bakı. 2000. 162 s; Beynəlxalq humanitar hüquq (Dərslik), Bakı. 2001. 495 s; Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi insan hüuqları kontekstində: tətbiq olunan hüquq və məsuliyyət məsələləri Bakı. 2001. 242 s; Münaqişənin nəticələrinin aradan qaldırılması. (M.P.Əsgərova ilə birlikdə) Bakı. 2002. 138 s; Ermənistan-Azərbaycan, Dağlıq Qarabağö münaqişəsi beynəlxalq hüquq müstəvisində. Bakı 2006. 695 s), bu mövzuda elmi araşdırmalar aparanlar üçün elmi mənbəə rolunu oynamışdır.

İkinci mühüm cəhət ondan ibarətdir ki, Vəfaddin İbayev beynəlxla hüquq sahəsində xeyli sayda kitabların müəllifi olmaqla onun Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən ali məktəblər üçün dərslik kimi təsdiq olunmuş “Beynəlxalq humanitar hüquq” kitabı məhz silahlı münaqişələr zamanı dövlətlər arasında müharibə qurnbanlarına, müharibə aparılmasının metod və vasitələrin məhdudlaşdırılması məsələlərinə həsr olunub. Yəni Vəfaddin İbayev silahlı münaqişələr hüququ üzrə Azərbaycanda ilk dərsliyi 2001-ci ildə nəşr etdirməklə bu sahədə də öz sözünü demiş mütəxəssisdir.

Üçüncüsü, Vəfaddin İbayev Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüquqi tənzimlənməsi, müharibə cinayətləri törətmiş şəxslərin cəzalandırılması məsələlərinə həsr olunan bir çox beynəlxalq konfranslarda, BMT-nin İnsan Hüquqları Şurasında “İtkin düşmüş şəxslərlə bağlı qətnamənin qəbuluna həsr olunmuş iclasda panel məruzəçisi kimi iştirak etməklə Azərbaycanı layiqli şəkildə təmsil etmişdir.

Nəhayət, onu da qeyd etməyi zəruri bilirəm ki, həmkarımız Birinci Qarabağ müharibəsinin iştirakçısı və müharibə veteranı olmaqla silahlı münaqişənin müəyyən çətinliklərini öz üzərində hiss etmiş insanlardandır.

Bütün qeyd olunanlar ona dəlalət edir ki, Vəfaddin İbayev 44 günlük müharibə zamanı Azərbaycan Respublikası Prezidentinin xalqa müraciətləri, çıxışları və müsahibələrini təhlil etməyə elmi və mənəvi haqqı olan tədqiqatçı alimdir.

Müəllif İlham Əliyevin “TRT HABER” televiziya kanalına verdiyi müsahibə zamanı söylədiyi “Atamın yolu mənim üçün işıq yoludur. Onun siyasətini davam etdirmək mənim onun oğlu və Prezident kimi borcumdur” fikrini kitab üçün epiqraf kimi seçmişdir. Qeyd olunan müddəanın epiqraf kimi seçilməsi kitabın ana xəttinin məhz həmin fikir əsasında inkişaf etməsini, reallaşan ideyaların İşıq yolundan süzulüb gəlməsini, Zəfərin qazanılmasında Ali Baş Komandan İlham Əliyevlə yanaşı Ulu Öndər Heydər Əliyevin də payının olmasını ehtiva edir. Məhz ona görə müəllif İlham Əliyevin 27 sentyabr 2020-ci il tarixli xalqa müraciətini təhlil edərkən düzgün olaraq belə bir nəticəyə gəlir: “Heydər Əliyev öz ehtimallarında yanılmamışdı. Onun özünün və ondan sonra layiqli varisinin həyata keçirdiyi siyasət nəticəsində Azərbaycan torpaqlarının işğaldan azad olunması, Azərbaycanın ərazi bütövlüyünün təmin olunması üçün hərtərəfli zəmin hazırlandı. İlkin

olaraq Heydər Əliyev Azərbaycanda sarsılmaz təmələ malik olan demokratik hüquqi dövlətin qurulmasını başa çatdırdı, Azərbaycanın müstəqil dövlət kimi dünya birliyində yerini müəyyən etdi, Azərbaycanın beynəlxalq təşkilatlarda tamhüquqlu üzv kimi iştirakını, dünyanın əksər dövlətləri ilə qarşılıqlı əməkdaşlığını təmin etdi, Azərbaycan, xüsusən Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasına yol açdı, Azərbaycanın iqtisadi cəhətdən inkişafı üçün möhkəm zəmin yaratdı, Azərbaycan xalqının yeni nəslinin vətənpərvərlik, xalq və torpaq sevgisi ruhunda yenidən tərbiyəsinin, Azərbaycan gənclərinin yüksək təhsil alması, Azərbaycan Ordusunun dünya standartlarına uyğun təlimə cəlb olunmasının, Azərbaycanda insan hüquq və azadlıqlarının təmininin əsaslarını hazırladı.

İlham Əliyev hazırlanmış möhkəm təməl üzərində ləyaqətlə dayanaraq Heydər Əliyevin siyasətini, onun qoyduğu yolu davam etdirərək daha cahanşümul nailiyyətlər qazandı. İlk növbədə Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı Azərbaycanın haqqa əsaslanan mövqeyinin hüquqi bazası yaradıldı: bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıdı; tarixi ədalətin Azərbaycanın tərəfində olmasını-işğal olunmuş ərazilərin azərbaycanlıların dədə-baba torpağı olmasını dünyanın əksər dövlətləri etiraf etməli oldu; beynəlxalq təşkilatların əksəriyyəti Azərbaycanın haqlı mövqeyini dəstəkləyərək Azərbaycanın ərazi bütövlüyünü tanıdı; beynəlxalq təşkilatlar çərçivəsində qəbul edilmiş qərar və qətnamələrdə Dağlıq Qarabağın Azərbaycana məxsus olduğu açıq-aydın təsbit olundu. Münaqişə tərəfi kimi Ermənistan Respublikasının Azərbaycan ərazilərini işğal etməsində iştirakı və işğal olunmuş ərazidə nəzarəti həyata keçirməsi İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarı ilə sübuta yetirildi.

İlham Əliyev apardığı xarici siyasət nəticəsində vaxtilə əsassız olaraq Ermənistanı dəstəkləyən dövlətləri Azərbaycanın zəfər yürüşü dövründə hadisələrin seyrçilərinə çevirdi.

İlham Əliyev “bir millət, iki dövlət” ideyasını reallığa çevirdi. Düşmən Azərbaycanın çətin günündə bu ifadənin sözdə təzahür olunmuş zəhmini reallıq kimi qəbul etdi.

İlham Əliyev Azərbaycan iqtisadiyyatının sürətli inkişafına nail olaraq ölkənin iqtisadi dayaqlarını möhkəmlətdi, dünya dövlətləri ilə iqtisadi sahədə əməkdaşlıq hərtərəfli vüsət aldı. İnsan kapitalına xüsusi diqqət yetirilməsi idarəçilik və istehsalın, ordu quruculuğu sahəsində bilikli mütəxəssislərin yetişdirilməsinə səbəb oldu. Ordunun müasir texnika ilə təmin olunması ölkənin müdafiə qabiliyyətini möhkəmləndirdi və Azərbaycan Ordusu zəfər qazanmağa layiq ordu kimi özünü doğrultdu. İlham Əliyev Azərbaycan insanında qələbə sevincini tədricən idman və musiqi sahələrindən başlayaraq müharibədə qələbəyə inam səviyyəsinə kimi yüksəldə bildi.

İlham Əliyev xalqın birliyinə, xalq ilə ölkə rəhbərliyinin, ordunun birliyinə nail oldu.

İlham Əliyev Ermənistanın hərbi qüvvələrinə münasibətdə Azərbaycan Silahlı Qüvvələrinin hərtərəfli və dəfələrlə qüdrətli olmasını təkrar-təkrar qeyd edirdi.

Bundan əlavə, xalq bu təcavüzə son qoyulması üçün ayağa qalxmış, birləşmiş, Vətənin işğaldan azad olunmasına istiqamətlənmişdi. 30 ilə yaxın müddətdə torpaqların işğal altında qalması hər kəsin qəlbini intiqam hissi ilə doldurmuşdu, vətənpərvərlik və mənəvi ruh yüksək səviyyədə idi, ölkə başçısının rəhbərliyi altında mübarizə üçün iqtisadi, siyasi, hüquqi baza hazırlanmışdı. Saatların əqrəbi tam bir dairə vurub, zənglər çalınmağa başladığı kimi, eyni şəkildə hərəkət üçün zaman yetişmişdi” (s.30-31).

Vəfaddin İbayev Prezidentin sentyabrın 27-də Təhlükəsizlik Şurasının iclasındakı çıxışını şərh edərkən beynəlxalq təcrübəyə - Vudro Vilson, Uinston Çerçillə müraciət edərək yazır: “Təcrübə tarixi şəxsiyyətlərin təcavüzkarlıq siyasətinə, işğalçılığa son qoymaq, müharibələri dayandırmaq üçün gücə müraciət etməsini təsdiq edir... “Bu müharibə bütün xalqlara qarşıdır” adlı

2 aprel 1917-ci il tarixli çıxışında V.Vilson deyirdi: “... biz azad xalqların bir yerdə başqa xalqlara sülh və təhlükəsizlik apardığı vaxt ədalətin hər yerdə hökmranlığı və sonda bütün dünyanı azad etməsi uğrunda döyüşəcəyik”. Müəllif Vudro Vilsonun həmin ifadəsini İlham Əliyevin çıxışında “təcavüzkar Ermənistan dövləti dayandırılmalıdır” fikrinin təsdiqi üçün təhlilə daxil etməklə oxşar şəraitdə böyük liderlərin fikirlərindəki həmrəyliyi nəzərə çatdırır. Müəllif həmin fikiri U.Çerçillin aşağıdakı sözləri ilə bir daha təsdiq edir: “Çətinliklər və təhlükələr biz onları sezməsək belə aradan qalxmayacaqdır. Biz hər şeyi öz axarına buraxdığımız və nə baş verəcəyini gözlədiyimiz zaman da onlar yoxa çıxmayacaqdır. Əgər biz əmin-amanlıq siyasətini həyata keçirsək, bu halda da onlar yoxa çıxmayacaqdır. Nizamasalma lazımdır. Biz nə qədər uzun zamana bunu təxirə salsaq, onu əldə etmək bir o qədər çətin olacaq, bizi hədələyən təhlükə bir o qədər artacaqdır”(s.41).

Vəfaddin İbayev həmin fəsildə Prezidentin fikirlərinin beynəlxla hüquq prizmasında təhlili üçün BMT Nizamnaməsinin 1, 24, 39, 51-ci maddələrinə, Təcavüzün 1974-cü il BMT Baş Məclisinin 29-cu sessiyasında qəbul edilmiş anlayışına, BMT Beynəlxalq Məhkəməsinin “Nikaraqua ABŞ-a qarşı” iş üzrə 1986-cı il Qərarına, Ermənistan Ali Sovetinin 1988-ci il 15 iyun tarixli “Dağlıq Qarabağ Muxtar vilayətinin Ermənistan SSR-in tərkibinə keçməsi haqqında qərarına, 1949-cu il Cenevrə Konvensiyalarına müraciət etməklə Ermənistanın təcavüzkar dövlət kimi mahiyyətini açıqlayır, Prezidentin fikirlərinin doğruluğunu böyük siyasətçilərin fikirləri ilə yanaşı beynəlxalq hüquq normaları ilə də təsdiqini sübuta yetirir (s.36-37).

Müəllif düşüncələrini əsaslandırmaq üçün Qurani Kərimin “əs Şura”, “Məhəmməd” surələrində əksini tapan müddəalara müraciət etməklə belə bir nəticə üzərində dayanır ki: “əgər biz açıq-aydın qanunsuzluğu aradan qaldırmaq iqtidarındayıqsa, onda bunu etmək bizim borcumuzdur”.

Daha sonra müəllif yazır “ədalətsizliyə qarşı mübarizənin zəruriliyi təkcə islam dinində deyil, bütün dinlərdə öz ifadəsini tapmışdır. İsa peyğəmbər “Dağ moizəsi”ndə deyirdi: “Müqəddəs yerləri itlərə verməyin və onların ayaqları ilə onu tapdamaması, geri qayıdıb sizi əzməmələri üçün öz mirvarinizi donuzların qarşısına atmayın... Beləliklə, adamların hər şeydə sizinlə necə davranmalarını arzulayırsınızsa, siz də onlarla elə davranın, çünki qanun və peyğəmbərlik bundadır” (s. 54).

1919-cu il yanvarın 18-də Versalda Güzgülü salonda Paris sülh Konfransındakı açılış nitqində təcavüzkar Almaniyanın taleyi ilə bağlı Fransa Prezidenti Raymond Poincare bildirirdi: ”Ədalətsizliklə yaranan şərəfsizliklə məhv olur”. Vəfaddin İbayevin kitabında əksini tapanlar Prezident İlham Əliyevin çıxışlarının təhlili Ermənistanın “ədalətsizliklə yaranmış şərəfsizliyinin məhv olması”na aparan yolun təhlilidir. Müəllifin Təhlükəsizlik Şurasında Prezidentin çıxışını təhlil edərkən haqlı olaraq belə bir nəticəyə gəlir ki, “İlham Əliyev yurdun, xalqın gur səsi, “sısqa bulağın” deyil, “ümmanların”, bütün Azərbaycan xalqının, Azərbaycanın bütöv ərazisində azadlığın təşnəsi olduğunu bəyan etdi. O, Vətənin bir hissəsində nail olunan azadlıqla kifayətlənmir, bütün Azərbaycan torpaqlarında azadlığa nail olmağa çalışır, torpaqların azad edilməsini özünün əsas vəzifələrindən biri hesab edirdi” (s.54).

Vəfaddin İbayev Prezidentin müxtəlif çıxışlarını təhlil edərkən Fransa dövlətinin ATƏT-in Minsk qrupunun həmsədri kimi neytral vəziyyətdən çıxış etməsi əvəzinə Ermənistana himayədarlıq mövqeyi nümayiş etdirməsinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən dəfələrlə vurğulanmasına rəğmən həmin məsələyə də hər dəfə öz münasibətini bildirir, bu cür himayədarlığın əslində həqiqət axtarmaq cəhdi deyil, Fransa dövləti və onun ölkə başçısının maraqları ilə bağlı olmasını müxtəlif tarixi faktlar, beynəlxalq hüququn normalarının şərhi ilə sübuta yetirir. Belə ki, V.İbayev Prezident İlham Əliyevin “ƏL-ƏRƏBİYƏ” televiziya kanalına 4 oktyabr 2020-ci ildə,

“CNN-TÜRK” televiziyasına 7 oktyabr 2020-ci ildə, “HABER GLOBAL” televiziya kanalına 12 oktyabr 2020-ci ildə, “FRANCE 24” televiziya kanalına 14 oktyabr 2020-ci ildə, “EFE İNFORMASİYA AGENTLİYİ”NƏ 4 noyabr 2020-ci ildə verdiyi müsahibələrini şərh edərkən tarixən Fransa dövlətinin haqq və ədaləti axtardığına görə deyil, məhz özünün maraqları baxımından çıxış etməsini sübuta yetirmişdir.

Müəllif Fransa dövlət başçısının rəhbərlik etdiyi dövlətin uzun bir dövr ərzində Elzas-Lotorengiyanın Almaniyadan qoparıb Fransaya birləşdirilməsi uğrunda mübarizə aparmasını unudaraq, əzəli Azərbaycan torpaqlarının Ermənistana birləşdirilməsinə himayədarlıq etməsini tarixi faktlara müraciətlə dövriyyəyə gətirməsi İlham Əliyevin çıxışlarında ifadəsini tapanların təsdiqi üçün yerində aşkara çıxarılan, real tarixi dəlillər kimi dəyərləndirilməlidir.

Məlum olduğu kimi Paris Sülh Konfransında Fransa öz maraqlarından çıxış edərək Almaniyanı kiçik dövlətlərə parçalamağa, Bavariyanı ondan ayırmağa, Avropada öz sərhədlərini genişləndirməyə çalışırdı.

Paris sülh Konfransında Avropa məsələlərində fransız hökuməti öz istəklərinə çatdı. Sülh Konfransının qərarlarına uyğun olaraq Fransa geniş ərazilər əldə etdi, zəngin təbii sərvətləri olan Elzas və Lotaringiyanı özünə qaytardı. Saar daş kömür şaxtaları Fransaya keçdi. Sonradan Fransa həmin əraziləri itirsə də, Almaniyanın İkinci Dünya Müharibəsində məğlubiyyətindən sonra yenidən həmin ərazilərə yiyələndi. Əslində Fransanın dövlət başçısı özlərinin tarixinə nəzər salmalı, İlham Əliyevin dediyi kimi “güzgüyə baxmalı” və sonra Ermənistan-Azərbaycan münaqişəsinə münasibətdə mövqeyini müəyyənləşdirməli idi. O, bunu etməsə də, möhtərəm Prezident diplomatik yollarla istəyinə nail olaraq, Fransanın gələcəkdə vasitəçilik missiyasına uyğun olaraq neytrallıq nümayiş etdirəcəkləri barədə vəd vermələrinə nail oldu.

V.İbayev həmin məsələləri təhlil etdikdən sonra Prezidentin 2020-ci il oktyabrın 14-də “FRANCE 24” televiziya kanalına müsahibəsi zamanı jurnalistin münaqişəyə Fransanın münasibəti ilə bağlı sualının cavabına istinadla yazır: “Toqquşmaların əvvəlindən biz bəzi ziddiyyətli bəyanatlar və bəzi mesajlar alırıq. Lakin düşünürəm ki, qarşılıqlı diplomatik səylərimiz sayəsində vəziyyəti nəzarət altında saxlamağa müvəffəq olmuşuq. Bildiyiniz kimi, Prezident Makron mənə bir neçə dəfə telefonla zəng edib və bizim sonuncu söhbətimiz çox müsbət idi. Biz münaqişənin siyasi həll yolunun tapılması səylərinə sadiqik. Mənə məlumat verildi ki, Fransa həmsədr olaraq neytral qalacaq, çünki bu, həmsədrin mandatıdır. Bu səhər mənə məlumat verildi ki, Fransanın xarici işlər naziri bəyanat verib ki, Fransa Minsk qrupunun həmsədri olduğuna görə neytral olmalıdır” (s.211).

Müəllif haqlı olaraq müharibə gedişində möhtərəm Prezidentin bu kimi fəaliyyətlərini onun diplomatik bacarığı, qələbəsi kimi dəyərləndirir. Diplomatiya, dövlətlərin xarici siyasət məqsədlərinə çatmaq üçün sülh yolu ilə, danışıqlar, razılaşmalar və mədəni mübadilələr vasitəsilə apardığı mənasını daşıyan diplomatik fəaliyyətlərdir; bu, dövlətlərarası münasibətləri tənzimləyir, beynəlxalq hüquq çərçivəsində əməkdaşlıq yaradır, münaqişələrin həllinə kömək edir və dövlətin beynəlxalq aləmdə mövqeyini gücləndirir.

Vəfaddin İbayev yazır: “Əsl siyasətçilər öz maraqlarını reallıq, beynəlxalq hüquq və ədalətlə uyğunlaşdırmalıdır. Bunlardan hər hansı birinin nəzərə alınmaması son nəticədə məqsədə nail olmamaqda ifadə oluna bilər. Münaqişənin silahlı toqquşmalarının başlanmasından əvvəl də İlham Əliyev dövlətlərarası münasibətlərdə tarazlığa nail olmağa çalışır, Azərbaycana qarşı olan qüvvələrin ən azından neytral vəziyyətə gətirilməsinə cəhd edirdi. Artıq bir ay müddətində kənar dövlətlər tərəfindən münaqişəyə aktiv müdaxilənin olmaması məhz İlham Əliyevin apardığı siyasətin nəticəsi idi. O, münaqişənin silahlı toqquşma mərhələsinin çox uzanmasını istəmir və bu

istiqamətdə fəal çalışırdı. Frenk Edkok siyasətin müharibənin gedişinə təsiri ilə əlaqədar deyirdi: “Müharibənin tanınmış tərifinə görə o, ancaq dövlət siyasətinin başqa vasitələrlə davamıdır. Bu iddiaya görə xarici siyasətdəki məqsədlərə həm müharibə etmədən sülh yolu ilə, həm də əksinə – diplomatiya ilə müharibə üçün zəmin və şərait yaratmaqla nail olmaq olar. Yalnız düşünülmüş strategiyaya malik olmaq, ağıllı və uzaqgörən xarici siyasət həyata keçirməklə özünə imkan qədər daha çox müttəfiq qazanmaq və bununla da düşməni müttəfiqlərdən məhrum etmək mümkündür”

Vəfaddin İbayev möhtərəm Prezidentin diplomatik bacarıqlarını oxucuya çatdırmaq üçün tez-tez diplomatiya tarixinə müraciət edir. Müqayisəli təhlillər apararaq dövlət başçımızın diplomatik dərslərini, onun incəliklərini, bu yolla qazandığı uğurları oxucuya çatdırır. Belə ki, tədqiqatçı İlham Əliyevin 2020-ci il oktyabrın 2-də “ƏL-CƏZİRƏ” televiziya kanalına müsahibəsi zamanı jurnalistin “diplomatiya nə vaxtsa işləyə bilərmi”? sualına cavabını bu cür şərh edir: “...diplomatiya – danışıqlar, onların müvəffəqiyyəti üçün ilkin olaraq tərəflərin bərabər vəziyyəti təmin olunmalı idi. Azərbaycan torpaqlarının işğal altında saxlanılması vəziyyətində aparılan danışıqların səmərəsizliyini 27 ilin təcrübəsi təsdiq edirdi. Bundan əlavə, diplomatik danışıqlarda da həqiqət və gerçəkliklər nəzərə alınmalı, özünəməxsus olmayanla alver etmək iddialarından əl çəkilməlidir. İlham Əliyev uzun səylər nəticəsində, Azərbaycanın işğal olunmuş ərazilərini erməni silahlı qüvvələrindən azad etmək üçün üçüncü dövlətlərin müdaxiləsindən azad lokal müharibəyə böyük diplomatik səylər nəticəsində nail olmuşdu. Tarixdə böyük diplomatlar kimi tanınmış şəxsiyyətlər bu cür nailiyyət əldə etməyi özləri üçün böyük uğur hesab etmişlər” (s.101).

Daha sonra tədqiqatçı Bismarkın diplomatik fəaliyyətinə qısa ekskurs edərək yazır: “Əlbəttə, Bismarkın və digər tanınmış diplomatların fəaliyyəti ilə bağlı çox danışmaq və çoxsaylı nümunələr gətirmək olar. Bizim məqsədimiz diplomatlar və onların istifadə üsullarından geniş söhbət açmaq deyil, sadəcə diplomatiya sahəsində fəaliyyətin necə çətinliklərdən keçdiyini nəzərə çatdırmaq idi. İlham Əliyev xalqı və dövləti üçün həyati əhəmiyyət kəsb edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini nizama salmaq üçün diplomatik yolun çətinliklərini də keçməli, müxtəlif maneələri dəf etməli olmuşdu. Bu yolda qazanılmış ən böyük uğurlardan biri 27 sentyabr 2020-ci il tarixində yenidən başlanan silahlı münaqişəyə digər dövlətlərin müdaxiləsini neytrallaşdırmaq sahəsində qazanılmış uğur idi” (s.102).

Vəfaddin İbayev ölkəniun çətin və məsuliyyətli günlərində informasiya müharibəsinin rolunu yüksək qiymətləndirir. İlham Əliyevin bu sahədə qazandığı uğurları konkret misallarla oxuculara çatdırır: “İlham Əliyevin beynəlxalq kütləvi informasiya vasitələri ilə sıx əməkdaşlıq etməsində məqsədi məhz həmin faktların, Azərbaycanın axıradək sülhsevər xarakterini beynəlxalq ictimaiyyətə çatdırmaq idi. O, informasiya müharibəsində uğur qazanmaq üçün hər bir imkandan istifadə edirdi. Ona görə də jurnalistlərin suallarını ətraflı, Azərbaycanın mənafeləri baxımından və məntiqli cavablandırırdı. İnformasiya müharibəsində Azərbaycanın qələbəsinin təmini üçün bu fəaliyyət son dərəcə önəmli idi” (s.96).

İlham Əliyev beynəlxalq birliyin, dünyanın aparıcı dövlətlərinin, beynəlxalq təşkilatların Azərbaycanın problemlərinə biganəliyi ilə – ərazilərinin Ermənistanın təcavüzkarlıq aktları nəticəsində işğal olunması, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin Ermənistanın öz havadarlarına arxalanaraq icra etməməsi ilə uzun illər ərzində rastlaşırdı. O, beynəlxalq təşkilatlarda ikili siyasətin həyata keçirilməsi, iri dövlətlərin beynəlxalq aləmdə baş verən hadisələrə münasibətinin haqq-ədalət baxımından deyil, öz maraqları prizmasından yanaşmalarını görürdü və Azərbaycan ərazilərinin işğaldan azad olunmasına yalnız xalqın gücü ilə nail olmalı idi. Müəllif yazır: “İlham Əliyev üçün ədalət də, beynəlxalq hüquq da önəm kəsb edirdi. Onun münaqişənin

nizama salınması üçün tutduğu yol həm beynəlxalq hüquqa, həm də haqq və ədalətə uyğun idi. Müsahibəni aparan jurnalistlərin özləri də, onların hazırladıqları verilişləri izləyənlər də, onları oxuyanlar da İlham Əliyevin fikirləri ilə tanış olduqdan sonra onun haqlı olması qənaətinə gəlməli, bunu hansısa maraqlar üzündən bildirməsələr belə, ürəklərində ona haqq qazandıracaqdılar. Çünki İlham Əliyev fikirlərini faktlara, beynəlxalq hüquqa və haqqa söykənərək izah edir, mövqeyini əsaslandırırdı. Əsas məsələ də tamaşaçıya, dinləyiciyə həqiqətin onun başa düşdüyü dildə, başa düşdüyü formada çatdırılmasında idi. İlham Əliyev informasiya müharibəsində üzərinə götürdüyü bu vəzifənin öhdəsindən layiqincə gəlirdi. Layiqincə gəlirdi ki, aparıcı "Siz Amerika siyasətini bilirsiniz, cənab Prezident" deməyə məcbur olurdu" (s.301).

Vəfaddinb İbayev möhtərəm Prezident İlham Əliyevin oktyabrın 19-da Rusiyanın TASS İnformasiya Agentliyinə müsahibəsini şərh edərkən U. Çerçillin Oma hökmdarı Kral Abdullaha yazdığı məktuba müraciət edərək "Qabaqda hələ uzun yol var, lakin son aydındır" ifadəsini xatırladır (s.265). Müəllif həmin fikri daha sonra davam etdirərək bildirir: "lham Əliyev bilirdi ki, müharibə bitəcək. Həm də Azərbaycanın qələbəsi ilə bitəcək. Lakin hələ qarşıda çətin, sevincli – kədərli günlər dururdu. Bununla belə, siyasətçilər bu günə deyil, daha uzaqlara boylanmalıdır. Bu günü yaşaya yaşaya gələcəyi hazırlamalıdır. Gələcəyin necə olacağı, gələcəyə hansı yollarla irəliləmək siyasətçilərdən çox asılıdır. Siyasi həyatda reallıqları nəzərə alan İlham Əliyev deyirdi: "...reallıqları əsas götürmək lazımdır, reallıqları isə siyasətçilər öz fəaliyyətləri ilə yaradırlar (s.326).

Vəfaddin İbayev tərəfindən müxtəlif siyasətçilərin (V.Vilson, U.Çerçill, F.Ruzvelt, Mustafa Kamal Atatürk, Şarl de Qoll, A.Tyer. J. Favr, Klemanso, Corc Lloyd, Con Saymon, Balfur, Eduard Qrey, Lui Bartu, de-Broyl, hersoq Dekaz və s.) ayrı-ayrı problemli məsələlərlə bağlı fikirlərini müqayisəli tədqiqata cəlb edilməsi İlham Əliyevin çıxışlarında ifadə etdiklərinin təsdiqi, onların həqiqətə və reallığa əsaslanmasını təsdiq etmək baxımından olduqca uğurlu yanaşma kimi dəyərləndirilməlidir.

Müəllif İlham Əliyevin Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş komandanı kimi sərkərdəlik məharətlərini tərənnüm etmək üçün Yuli Sezar, Çingizxan, Əmir Teymur, Hannibal, A.Suvorov, G.K.Jukov kimi tanınmış sərkərdələrin fəaliyyəti ilə müqayisəli təhlil aparması reallıqları dəyərləndirmək baxımından faydalı olmaqla yanaşı əsərin oxunaqlı olmasına da əhəmiyyətli təsir göstərmişdir. Qeyd olunanların ən vacib cəhəti isə müəllifin əsər boyu təşəbbüslərinin Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi və inkişafına İlham Əliyevin bəxş etdiklərinin ən müxtəlif müstəvilərdən yüksək peşəkarlıqla dəyərləndirilməsidir. Bu cəhətdən əsərin özü də dövlətçiliyimiz, onun şanlı tarixi üçün əvəzolunmaz bir nümunədir. Mənə elə gəlir ki, Vəfaddin İbayevin bu təşəbbüsü bu sahədə yeni-yeni əsərlərin yaranması üçün yol açacaqdır. Bu yol cənab Prezidentin bizim alimlərimizdən, yazıçılarımızdan, siyasətçilərimizdən tələb etdiyi kimi "parlaq, tam və mütləq Qələbə"mizin öyrənilməsi, bu barədə kitabların, əsərlərin yazılması üçün açılan bir yoldur.

Əsərin yüksək peşəkarlıq, böyük zəhmət, elmi təhlillər, müqayisəli tədqiqat əsasında ərsəyə gəlməsi heç bir şübhə doğurmur, təkcə kitabdakı istinadların nəzərdən keçirilməsi kifayətdir ki, dediklərimizin həqiqət olmasına əminlik yaransın.

Müəllif haqlı olaraq belə nəticəyə gəlir ki, "İlham Əliyev mürəkkəb vəziyyətlərdə dərhal düzgün qərara gəlirdi. O, ona görə buna nail olurdu ki, özünü cari və operativ məsələlərin həllinə hazırlamışdı, fikri həmişə işdə idi, hər gün ağır zəhmətə qatlaşır, hərbi vəziyyəti nəzarətdə saxlayır, hərbçilərlə görüşür, müşavirələr keçirir, fikirlərini bölüşür, fikirləri dinləyirdi. Birgə axtarışlar sayəsində məsələnin ən düzgün həllini tapmaq, qələbəyə aparan ən doğru yolu müəyyənləşdirmək yalnız zəhmət bahasına başa gəlirdi (s.270)...

Azərbaycan Ordusunun qələbələrinin əsasını həm də döyüş meydanlarında ağıllı, təhsilli, hərbi işi yaxşı bilən, siyasi və mənəvi cəhətdən kamil zabit heyətinin olması təşkil edirdi. Azərbaycanda yaradılan hərbi məktəblərin verdiyi təhsil, Türkiyə Respublikası və digər xarici ölkələrin hərbi məktəblərində qazanılan təcrübə də öz sözünü deyirdi. Hərbi əməliyyatların keçirilməsində iştirak edən generaldan tutmuş sıravi əsgərə qədər hər kəsin qələbəyə inamı da mühüm əhəmiyyət kəsb edirdi. Bu cür inama mənsub olan əsgər və zabitlərin qarşısını ala biləcək qüvvə yox idi. İnam əsgərləri yalnız irəliyə, qələbəyə səsləyirdi. Onlar döyüş meydanında özünəməxsus qətiyyət və mərdliklə hərəkət edir, tərəddüd keçirmədən hər bir əsgər və zabit məsuliyyəti öz üzərinə götürərək döyüşə atılır, igidlik və hünər nümayiş etdirirdi. Bunlarsız qələbə mümkün deyildi. Qələbə varsa, deməli igidlik də, hünər də meydanda idi” (s.309).

Vəfaddin İbayevin oxuculara təqdim etdiyi kitab elmi əsaslar və dərin elmi təhlil əsasında reallıq və həqiqət olanı bir daha təsdiq etdi: Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev nəyi, nə vaxt və necə etmək lazım olduğunu bilir. Möhtərəm Prezidentin böyük zəhməti, bacarığı, sərkərdəlik məharəti nəticəsində Ermənistan təcavüzkarlarının “ədalətsizliklə yaratdıqları şərəfsizliklə məhv oldu”. Məhz bunun nəticəsidir ki, Azərbaycan xalqı Zəfərin beş illiyini qürurla qeyd edir.

Müəllifin indiyə qədər oxuduğum, tanış olduğum kitablarının hər biri elmi yaradıcılığın məhsulu kimi faydalı və lazımlıdır. Haqqında bəhs etdiyimiz “Suverenliyin Zəfər yolu: reallaşan ideyalar, hüquqi əsaslar, siyasi paralellər” kitabı dövlətçiliyə, Zəfərimizə layiqli bir ərməğan kimi onların hamısının fövqündə durur.

Vəfaddin İbayevin yaradıcılığını bələd olan alim kimi əminəm ki, həmkarımız uğurlu işini davam etdirəcək, dövlətçiliyimizin inkişafına xidmət edən yeni əsərlər yaradacaqdır.